# Görünməyən cəbhə: Ekoloji müharibə...

## Güllə səsi altında susan təbiət



Müharibə barıt qoxusu, yanmış torpaqlar, dağıdılmış şəhərlər və sükuta bürünmüş insan taleləri deməkdir. Lakin çox zaman unuduruq ki, bu fəlakət təkcə insanları deyil, təbiətin özünü də qan içində boğur. Güllə səsi ilə diksinən quşlar, bombaların altında məhv olan meşələr, kimyəvi silahların zəhərinə bürünən torpaqlar... Bütün bunlar müharibənin görünməyən, amma dərin izlər buraxan yaralarıdır.

Noyabrın 6-sı Müharibə və Silahlı Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısının Alınması Beynəlxalq Günü kimi qeyd olunur. Bu əlamətdar gün Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 5 noyabr 2001-ci ildə müəyyən edilib.

Ölkəmiz üçün bu günün mənası xüsusilə dərindir. Təəssüf ki, ekoloji terror Azərbaycandan yan keçməyib, 30 ilə yaxın davam edən Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının təbiətinə, bioloji müxtəlifliyinə, su hövzələrinə, ümumilikdə, işğal altında olan ərazilərin ekologiyasına ciddi ziyan dəyib, ətraf mühitin məhvi və ciddi zərər görməsi ilə nəticələnən fəsadlara gətirib çıxarıb.

Ermənistan Respublikası silahlı qüvvələrinin hərbi fəaliyyəti və qadağan olunmuş silahlardan istifadəsi nəticəsində ətraf mühit fiziki və kimyəvi çirklənməyə məruz qalmaqla yanaşı, burada mövcud olan müxtəlif nadir bitki və heyvan növləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan vurulub. Təmiz su mənbələrinin kimyəvi çirklənməsi nəticəsində çay və göllərdə özü-özünü təmizləmə prosesi dayanıb, nəticədə su hövzələri bütün canlılar üçün zərərli, ölü bir zonaya çevrilib.

Təsadüfi deyil ki, BMT Baş Assambleyası tərəfindən hələ 2006-cı ildə qəbul edilmiş “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı Qətnaməsində işğal altında olan Azərbaycan torpaqlarında törədilmiş yanğınların regionun ekoloji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi məsələsi qaldırılmışdı. Bununla yanaşı, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2085 nömrəli qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunub.

Bu müddət ərzində Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal altında saxlanılan ərazilərində təbii sərvətlər talan edilmiş, 163 faydalı qazıntı yatağı, o cümlədən qızıl, civə, mis, qurğuşun, sink, daş kömür, meşə örtüyü, nadir ağaclar və digər sərvətlər qanunsuz istismara məruz qalıb.

Uzun illər işğal altında qalan ərazilərimizdə baş verənlər ekoloji terror nümunələridir. Bu gün həmin torpaqlarda bərpa və yenidənqurma işləri aparılır, yaşıl enerji zonaları yaradılır, ağaclar əkilir. Bu, təkcə iqtisadi yox, ekoloji ədalətin bərpasıdır.

***Yeganə BAYRAMOVA***

Yeni Azərbaycan.- 2025.- 6 noyabr, №202.- S.8.